| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 22.11.1998 |
| QEYDİYYAT NÖMRƏSİ | 24 |
| ADI | “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-1998, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 666) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 180.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**“Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

“Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 9-cu maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş avtomobil yollarının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və təmiri qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 9-cu maddəsinin 8-ci hissəsində nəzərdə tutulmuş avtomobil yollarının qəbul edilməsi zamanı müayinənin, yoxlamanın və sınağın keçirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 16-cı maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında” Əsasnaməni təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 16-cı maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş sürücülük vəsiqəsini almaq üçün yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələri idarəetmə məsələləri üzrə təcrübi imtahanlara müstəqil hazırlanmasının qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 23-cü maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarının pozulmasına görə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən cərimələrdən daxil olan vəsaitin təyinatı üzrə istifadə olunması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 24-cü maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət uçotunun aparılması, məlumat uçotlarının istifadəsi və hesabat məlumatlarının formalaşdırılması qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 25-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş yol hərəkətinin təhlükəsizliyi göstəricilərinin siyahısını, uçot və hesabat qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 27-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş “Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında” Əsasnaməni təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 30-cu maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş “Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında”, “Nəqliyyat vasitələrinə ~~təminatlı~~ texniki xidmət göstərilməsi haqqında” və “Nəqliyyat vasitələrinə ~~təminatlı~~ texniki xidmət göstərən texniki-təmir sahələri haqqında” və “Nəqliyyat vasitələrinə ~~təminatlı~~ texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında” nümunəvi əsasnamələri təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;[1]

həmin Qanunun 31-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş “Nəqliyyat vasitələrinin duracaqları və qarajlar haqqında” nümunəvi Əsasnaməni təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 32-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 35-ci maddəsinin 5-ci hissəsində nəzərdə tutulmuş “Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında” Əsasnaməni təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 35-ci maddəsinin 8-ci hissəsində nəzərdə tutulmuş sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün alınan haqqın məbləğini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 82-ci maddəsinin 2-ci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin 17-ci hissəsinin 2-ci bəndində və 79-cu maddəsinin 2-ci—4-cü bəndlərində göstərilmiş pozuntulara görə inzibati tənbeh tətbiq edilmiş şəxslərin cərimə ballarının uçotu qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

*2.1. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 1-ci hissəsinin 1-ci və 2-ci bəndlərində, 7-ci maddəsinin 2-ci hissəsinin 2-ci bəndində, 9-cu maddəsinin 4-cü və 9-cu (hər iki halda) hissələrində , 10-*

*cu maddəsinin 2-ci hissəsinin 1-ci bəndində, 11-ci maddəsinin 5-ci hissəsinin 8-ci bəndində, 12-ci maddəsinin 2-ci hissəsinin birinci cümləsində, 18-ci maddəsinin 2-ci hissəsində, 23-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində (hər üç halda), ikinci cümləsində və "Qeyd" hissəsində (hər iki halda), 24-cü maddəsinin 3-cü hissəsində, 27-ci maddəsinin 1-ci hissəsində, 32-ci maddəsinin 2-ci hissəsində, 48-ci maddəsinin 1-ci hissəsində, 53-cü maddəsinin 1-ci və 2-ci hissələrində, 7-ci hissəsinin birinci və üçüncü (birinci halda) cümlələrində, 12-ci hissəsinin ikinci cümləsində, 13-cü hissəsinin birinci cümləsində, 14-cü hissəsinin 3-cü bəndində, 19-cu hissəsinin ikinci və üçüncü cümlələrində və 25-ci hissəsində, 59-cu maddəsinin 11-ci və 12-ci hissələrində, 61-ci maddəsinin 10-cu və 11-ci hissələrində, 69-cu maddəsinin 2-ci hissəsində, 71-ci maddəsinin 2-ci hissəsində, 85-ci maddəsinin adında, birinci hissəsində və 10-cu bəndinin "Qeyd" hissəsinin birinci cümləsində, həmin Qanuna 1 saylı Əlavə – "Nəqliyyat vasitələrinin nasazlıqlarının siyahısı"nın VII hissəsinin 3-cü bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*[2]

*2.2. həmin Qanunun 23-cü maddəsinin 2-ci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;*[3]

*2.3. həmin Qanunun 23-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində (ikinci və üçüncü hallarda) və "Qeyd" hissəsində (hər üç halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur;*[4]

~~*2.3-1. həmin Qanunun 23-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur;*~~[5]

*2.4. həmin Qanunun 23-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində "orqanın (qurumun) işçiləri" dedikdə ~~Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətinin işçiləri və~~ Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin yol patrul xidmətini həyata keçirən və yol hərəkətinin tənzimlənməsinə cəlb olunan əməkdaşları, habelə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin və Bakı Nəqliyyat Agentliyinin işçiləri nəzərdə tutulur;*[6]

*2.4-1. həmin Qanunun 34-cü maddəsinin I hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;*[7]

2.5. həmin Qanunun *6-1-ci maddəsinin II hissəsində,* 9-cu maddəsinin 1-ci və 8-ci hissələrində, *9-1-ci maddəsinin I hissəsinin ikinci cümləsində və IV hissəsində,* 16-cı maddəsinin 1-ci hissəsinin ikinci cümləsində ~~və 3-cü hissəsində~~, ~~23-cü maddəsinin 3-cü hissəsində,~~ 24-cü maddəsinin 4-cü hissəsində, 25-ci maddəsinin 2-ci hissəsində, 27-ci maddəsinin II hissəsinin 3-cü bəndində (birinci halda) və 4-cü bəndində (birinci halda), 6-1-ci hissəsində, 30-cu maddəsinin 3-cü və 4-cü hissələrində, 31-ci maddəsinin 1-ci hissəsində, ~~32-ci maddəsinin 2-ci hissəsində,~~ 35-ci maddəsinin 5-ci hissəsinin ikinci cümləsində *və 53-cü maddəsinin üçüncü, səkkizinci və doqquzuncu (hər iki halda) hissələrində, on ikinci hissəsinin birinci cümləsində* ~~və 8-ci hissəsində~~ və nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;[8]

*2.5-1. həmin Qanunun 9-cu maddəsinin 9-cu hissəsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;*[9]

*2.5-2. həmin Qanuna 1 saylı Əlavə – "Nəqliyyat vasitələrinin nasazlıqlarının siyahısı"nın VII hissəsinin 3-cü bəndində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir.*[10]

2.6. həmin Qanunun 4-cü maddəsinin 24-cü bəndində, 6-cı maddəsinin 1-ci hissəsinin 6-cı bəndində, 8-ci maddəsinin 3-cü hissəsində, 10-cu maddəsinin 3-cü və 4-cü hissələrində, 11-ci maddəsinin 5-ci və 6-cı hissələrində, 16-cı maddəsinin 1-ci hissəsinin üçüncü cümləsində (birinci halda), 19-cu maddəsinin 1-ci hissəsində, 20-ci maddəsinin 2-ci hissəsində "imkanına" sözündən sonra~~*, 23-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində*~~, 27-ci maddəsinin II hissəsinin 1-ci bəndində, VI-I hissəsinin üçüncü cümləsində, VII, X, XI və XII hissələrində, XIII-I hissəsinin ikinci cümləsində (ikinci halda) və üçüncü cümləsində, XVI hissəsində, 28-ci maddəsinin IV hissəsinin ikinci cümləsində, 29-cu maddəsinin II-I hissəsinin birinci cümləsində, III hissəsinin üçüncü cümləsində, IV hissəsinin birinci cümləsində və V hissəsinin birinci cümləsində, 31-ci maddəsinin 4-cü hissəsində, 32-ci maddəsinin 1-ci hissəsində, 33-cü maddəsinin III hissəsində (ikinci halda), 35-ci maddəsinin II hissəsinin birinci abzasında, III hissəsinin birinci cümləsində və IV hissəsinin 3-cü bəndində, 5-ci hissəsinin birinci cümləsində, 7-ci və 10-cu hissələrində, 36-cı maddəsinin 1-ci hissəsinin 5-ci və 6-cı bəndlərində, 37-ci maddəsinin 1-ci hissəsinin 1-ci, 2-ci, 12-ci və 13-cü bəndlərində, 4-cü hissəsinin 4-cü və 5-ci bəndlərində, *72-ci maddəsinin "Qeyd" hissəsinin birinci və ikinci cümlələrində*, ~~*61-ci maddəsinin 11-ci hissəsində,*~~ 74-cü maddəsinin 6-cı və 7-ci hissələrində, 83-cü maddəsinin 1-ci, 2-ci və 3-cü hissələrində, 84-cü maddəsinin adında, birinci cümləsində, 2-ci, 6-cı ~~, 6-1-ci~~ və 8-ci bəndlərində, 85-ci maddəsinin ~~adında, birinci cümləsində,~~ 2-ci bəndinin ikinci abzasında (hər iki halda), 2-ci bəndinin qeydində (hər iki halda), ~~5-ci bəndində,~~ 7-ci bəndində, 9-cu bəndində ~~və onun qeydində, *10-cu bəndinin qeydində*~~, 11-ci bəndinin qeydində "qaydada" sözündən sonra və ikinci cümləsində~~, 85-1-ci maddəsinin 1-ci, 3-cü hissələrində, 4-cü hissəsində (hər iki halda), 5-7-ci, 9-cu hissələrində, 11-ci hissəsində (hər üç halda) və 13-cü hissəsində~~ nəzərdə tutulan "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;[11]

*2.7. həmin Qanunun 30-cu maddəsinin VIII hissəsinin ikinci abzasının üçüncü cümləsində, üçüncü abzasının birinci cümləsində, dördüncü abzasının birinci cümləsində, 53-cü maddəsinin yeddinci hissəsinin üçüncü cümləsində (ikinci halda), on birinci hissəsində, on üçüncü hissəsinin ikinci cümləsində və on yeddinci hissəsində, 83-cü maddəsinin II*

*hissəsinin ikinci cümləsində və 84-cü maddəsinin 6-1-ci bəndində "müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;*[12]

*2.7-1. həmin Qanunun 30-cu maddəsinin VIII hissəsinin dördüncü abzasının birinci və ikinci cümlələrində "müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur;*[13]

2.8. həmin Qanunun 6-cı maddəsinin 1-ci hissəsinin 1-ci bəndində "*orqan (qurum)" dedikdə* Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi*, *Bakı şəhərinin inzibati ərazisində isə ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyi* və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi *nəzərdə tutulur*;[14]

2.9. həmin Qanunun 7-ci maddəsinin 2-ci hissəsinin 2-ci bəndində ~~*və 11-ci maddəsinin V hissəsinin 8-ci bəndində*~~ *"orqan (qurum)" dedikdə* Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur*;[15]

2.10. həmin Qanunun ~~9-cu maddəsinin 9-cu hissəsində və~~ 26-cı maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikası Nazirlər Kabinetinin yol hərəkəti təhlükəsizliyi Komissiyası həyata keçirir;[16]

2.11. həmin Qanunun 5-ci maddəsinin 1-ci hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* həyata keçirir;[17]

2.12. həmin Qanunun ~~*9-cu maddəsinin 2-ci hissəsində, 10-cu maddəsinin 2-ci hissəsinin 1-ci bəndində və*~~ *11-ci maddəsinin IV hissəsinin 1-ci bəndində* nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi həyata keçirir;[18]

*2.12-1. həmin Qanunun 12-ci maddəsinin II hissəsinin birinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası, nəqliyyat vasitələrinin hərəkəti tarix və mədəniyyət abidələrinin qorunması üçün təhlükə yaratdıqda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəyi əsasında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, "İçərişəhər" Dövlət Tarix Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazilərində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;*[19]

2.13. həmin Qanunun 16-cı maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir;

2.14. həmin Qanunun 19-cu maddəsinin 4-cü hissəsində, 20-ci maddəsinin 2-ci hissəsində, 33-cü maddəsinin III hissəsində (birinci halda) və VI hissəsində, 34-cü maddəsinin 5-ci hissəsinin 4-cü bəndində və 35-ci maddəsinin 2-ci hissəsinin 3-cü bəndində "mütəxəssislərlə" sözündən əvvəl nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;[20]

2.15. həmin Qanunun 27-ci maddəsinin 3-cü hissəsində, ~~85-ci maddəsinin 11-ci bəndində və onun qeydində "xidmət etdiyi" sözlərindən sonra~~ nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının müdafiə Nazirliyi həyata keçirir;[21]

2.16. həmin Qanunun 7-ci maddəsinin 2-ci hissəsinin 13-cü bəndində, 23-cü maddəsinin 1-ci hissəsində, 25-ci maddəsinin 3-cü hissəsində, 36-cı maddəsinin 3-cü hissəsinin 2-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri, dövlət şirkətləri, baş idarələri və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.17. həmin Qanunun 37-ci maddəsinin 3-cü hissəsinin 2-ci bəndində və onun qeydində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirirlər;[22]

~~həmin Qanunun 85-ci maddəsinin 12-ci bəndinin qeydində "tərəfindən" sözündən sonra nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir;~~[23]

2.18. həmin Qanunun *4-cü maddəsinin 24-cü bəndində (kənd təsərrüfatı texnikası üçün xüsusi məhsullara münasibətdə), 27-ci maddəsinin II hissəsinin 3-cü bəndində (ikinci halda), VII, XI, XII və XVI hissələrində, 28-ci maddəsinin IV hissəsinin ikinci cümləsində, 29-cu maddəsinin III hissəsinin üçüncü cümləsində, IV hissəsinin birinci cümləsində və V hissəsinin birinci cümləsində, 33-cü maddəsinin III hissəsində (ikinci halda), 35 maddəsinin II hissəsinin birinci abzasında, III hissəsinin birinci cümləsində, V hissəsinin birinci cümləsində, VII və X hissələrində* nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini *kənd təsərrüfatı texnikasına münasibətdə* Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir;[24]

2.19. həmin Qanunun 27-ci maddəsinin 2-ci hissəsinin 4-cü bəndində (ikinci halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir;[25]

2.20. həmin Qanunun 27-ci maddəsinin 2-ci hissəsinin 5-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirir;[26]

2.21. həmin Qanunun 9-cu maddəsinin 4-cü hissəsində *"orqan (qurum) dedikdə* Azərbaycan Respublikasının Daxili

İşlər Nazirliyi, ~~Azərbaycan Respublikasının~~ ~~*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ,*~~ *Bakı şəhərinin inzibati ərazisində* ~~*isə*~~ *Bakı Nəqliyyat Agentliyi*, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur*;[27]

2.22. həmin Qanunun 18-ci maddəsinin 2-ci hissəsində *"orqan (qurum) dedikdə* Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi , Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi*, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi *nəzərdə tutulur*;

2.23. həmin Qanunun 24-cü maddəsinin 3-cü hissəsində *"orqan (qurum) dedikdə* Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi* və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi *nəzərdə tutulur*;[28]

2.24. həmin Qanunun 18-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.25. həmin Qanunun 6-cı maddəsinin 1-ci hissəsinin 2-ci bəndində və 71-ci maddəsinin 2-ci hissəsində *"orqan (qurum)" dedikdə* Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə* ~~*Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında*~~ *Bakı Nəqliyyat Agentliyi* və yerli icra hakimiyyəti orqanları *nəzərdə tutulur*;[29]

2.26. həmin Qanunun 2-ci hissəsinin 2-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.27. həmin Qanunun 10-cu maddəsinin 2-ci hissəsinin 2-ci bəndində, 27-ci maddəsinin 2-ci hissəsinin 2-ci bəndində *və 31-ci maddəsinin 2-ci hissəsinin birinci cümləsində* nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;[30]

2.28. həmin Qanunun 85-ci maddəsinin 11-ci bəndində və onun Qeyd hissəsində "xidmət etdiyi" sözlərindən sonra nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;[31]

2.29. həmin Qanunun 16-cı maddəsinin 1-ci hissəsinin üçüncü cümləsində (ikinci halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat* Nazirliyi həyata keçirir;[32]

2.30. həmin Qanunun 27-ci maddəsinin XIII-I hissəsinin birinci cümləsində və ikinci cümləsində (birinci halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;[33]

*2.31. həmin Qanunun 53-cü maddəsinin 1-ci və 2-ci hissələrində, 13-cü hissəsinin birinci cümləsində, 14-cü hissəsinin 3-cü bəndində, 19-cu hissəsinin ikinci və üçüncü cümlələrində*~~*, 25-ci hissəsində*~~*, 59-cu maddəsinin 12-ci hissəsində, 61-ci maddəsinin 11-ci hissəsində, 69-cu maddəsinin 2-ci hissəsində*~~*, 85-ci maddəsinin 10-cu bəndinin "Qeyd" hissəsində*~~ *"orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur;*[34]

*2.31-1. həmin Qanunun 53-cü maddəsinin 25-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 346-1.2 – 346-1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətaların törədilməsi halları istisna olmaqla, həmin Qanunun 53-cü maddəsində nəzərdə tutulmuş digər tələblərlə bağlı Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 346-1.2 – 346-1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətaların törədilməsi halları ilə bağlı Bakı şəhərinin inzibati ərazisində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur;*[35]

*2.32. həmin Qanunun 11-ci maddəsinin V hissəsinin 8-ci bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Bakı şəhərinin inzibati ərazisində* ~~*Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında*~~ *Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur;*

*2.33. həmin Qanunun 10-cu maddəsinin 2-ci hissəsinin 1-ci bəndində "qurum" dedikdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi nəzərdə tutulur;*[36]

*2.34. həmin Qanunun 53-cü maddəsinin 7-ci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları, Bakı şəhərinin inzibati ərazisində isə parklanma yerlərinin ayrılmasına münasibətdə Bakı Nəqliyyat Agentliyi, fərdi parklanma talonlarının verilməsinə münasibətdə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;*[37]

*2.35. həmin Qanunun 53-cü maddəsinin 7-ci hissəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur;*

*2.36. həmin Qanunun 59-cu maddəsinin 11-ci hissəsində və 61-ci maddəsinin 10-cu hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi*

*(Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla) nəzərdə tutulur;*[38]

*2.36-1. həmin Qanunun 9-cu maddəsinin 9-cu hissəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi (svetoforlar və yol nişanlarına münasibətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla) nəzərdə tutulur.*[39]

*2.37. həmin Qanunun 85-ci maddəsinin adında, birinci hissəsinin birinci abzasında və 10-cu bəndinin "Qeyd" hissəsində" "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 346-1.2-ci, 346-1.3-cü və 346-1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətaların törədilməsi halları ilə bağlı Bakı şəhərinin inzibati ərazisində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 346-1.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədilməsi halı ilə bağlı Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur.*[40]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 22 noyabr 1998-ci il
24

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


**1.** 4 iyul 2001-ci il tarixli 522 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 7, maddə 459** )

**2.** 23 oktyabr 2003-cü il tarixli 941 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 10, maddə 546** )

**3.** 23 oktyabr 2003-cü il tarixli 966 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 10, maddə 571** )

**4.** 3 avqust 2004-cü il tarixli 109 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 8, maddə 617** )

**5.** 10 dekabr 2004-cü il tarixli 159 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 12, maddə 1005** )

**6.** 27 sentyabr 2006-cı il tarixli 466 nömrəli Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 9, maddə 743** )

**7.** 6 avqust 2008-ci il tarixli **812** nömrəli Azərbaycan Respublikasının Fərmanı ("**Azərbaycan" qəzeti, 9 avqust 2008-ci il 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 719**)

**8.** 14 aprel 2009-cu il tarixli 81 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 19 aprel 2008-ci il, 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 04, maddə 226)**

**9.** 31 avqust 2009-cu il tarixli 154 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 03 sentyabr 2009-cu il, 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 08, maddə 630)**

**10.** 1 iyul 2010-cu il tarixli **287** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 02 iyul 2010-cu il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 606)**

**11.** 25 iyul 2011-ci il tarixli **455** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 02 iyul 2011-ci il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 06, maddə 510)**

**12.** 8 may 2012-ci il tarixli nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 09 may 2012-ci il, 101, "Azərbaycan" qəzeti 12 may 2012-ci il, 103, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 05, maddə 423)**

**13.** 1 noyabr 2012-ci il tarixli **719** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 2 noyabr 2012-ci il, 244 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1079)**

**14.** 11 sentyabr 2014-cü il tarixli **263** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 sentyabr 2014-cü il, 198; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1043** )

**15.** 2 fevral 2015-ci il tarixli **448** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 8 fevral 2015-ci il, 30 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 02, maddə 110)**

**16.** 23 fevral 2015-ci il tarixli **478** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 25 fevral 2015-ci il, 044, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 140)**

**17.** 9 iyun 2015-ci il tarixli **551** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 10 iyun 2015-ci il, 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 06, maddə 707)**

**18.** 14 oktyabr 2015-ci il tarixli **644** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 15 oktyabr 2015-ci il, 224, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 10, maddə 1116)**

**19.** 16 mart 2016-cı il tarixli **835** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 17 mart 2016-cı il, 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 456)**

**20.** 6 aprel 2016-cı il tarixli **857** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 7 aprel 2016-cı il, 72 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 662)**

**21.** 18 aprel 2016-cı il tarixli **861** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 19 aprel 2016-cı il, 82 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 666)**

**22.** 23 iyun 2016-cı il tarixli **966** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, 137 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1062)**

**23.** 30 noyabr 2016-cı il tarixli **1132** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 8 dekabr 2016-cı il, 272, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1839** )

**24.** 1 may 2017-ci il tarixli **1354** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 758)**

**25.** 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521)**

26. 1 fevral 2018-ci il tarixli **1805** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 fevral 2018-ci il, 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 169**)

27. 20 fevral 2018-ci il tarixli **1833** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 23 fevral 2018-ci il, 42 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2 , maddə 197**)

28. 17 aprel 2018-ci il tarixli **1926** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 25 aprel 2018-ci il, 92 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 677**)

29. 26 iyun 2018-ci il tarixli **151** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 30 iyun 2018-ci il, 142 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1241**)

30. 6 iyul 2018-ci il tarixli **180** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 iyul 2018-ci il, 152 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1466**)

31. 16 iyul 2018-ci il tarixli **207** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 17 iyul 2018-ci il, 156 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1493**)

32. 31 yanvar 2019-cu il tarixli **506** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 9 fevral 2019-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 96**)

33. 11 mart 2019-cu il tarixli **580** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 96**)

34. 19 iyul 2019-cu il tarixli **781** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 21 iyul 2019-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1228**)

35. 28 avqust 2019-cu il tarixli **820** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1402**)

36. 28 avqust 2019-cu il tarixli **824** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 sentyabr 2019-cu il, 191, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1406**)

37. 22 may 2020-ci il tarixli **1036** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 iyun 2020-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 561**)

38. 10 iyul 2020-ci il tarixli **1105** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyul 2020-ci il, 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 885**)

39. 12 aprel 2021-ci il tarixli **1311** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 aprel 2021-ci il, 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 316**)

40. 4 avqust 2022-ci il tarixli **1800** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 4 avqust 2022-ci il, "Xalq" qəzeti, 5 avqust 2022-ci il, 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 860**)

41. 1 fevral 2023-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 1 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 2 fevral 2023-cü il, 23**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 30 noyabr 2016-cı il tarixli **1132** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 8 dekabr 2016-cı il, 272, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1839**) ilə 1-ci hissənin on üçüncü abzasından hər üç halda "**təminatlı**" sözü çıxarılmışdır.

[2] 8 may 2012-ci il tarixli **630** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 09 may 2012-ci il, 101, "Azərbaycan" qəzeti 12 may 2012-ci il, 103, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 05, maddə 423**) ilə 2-ci hissənin birinci bəndində "**Qanunun**" sözündən sonra "**27-ci maddəsinin 1-ci hissəsində, 32-ci maddəsinin 2-ci hissəsində və** " sözləri əlavə edilmişdir.

20 fevral 2018-ci il tarixli **1833** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 23 fevral 2018-ci il, 42 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2 , maddə 197**) ilə 2-ci hissənin ikinci abzasına "**Qanunun**" sözündən sonra "**10-cu maddəsinin 2-ci hissəsinin 1-ci bəndində,**" sözləri əlavə edilmişdir.

17 aprel 2018-ci il tarixli **1926** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 25 aprel 2018-ci il, 92 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 677**) ilə 2-ci hissəsinin ikinci-otuz dördüncü abzaslar, müvafiq olaraq, 2.1–2.33-cü bəndlər hesab edilmişdir.

6 iyul 2018-ci il tarixli **180** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 iyul 2018-ci il, 152 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1466**) ilə 2.1-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.1. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun *10-cu maddəsinin 2-ci hissəsinin 1-ci bəndində,* 27-ci maddəsinin 1-ci hissəsində, 32-ci maddəsinin 2-ci hissəsində və 48-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;~~

31 yanvar 2019-cu il tarixli **506** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 9 fevral 2019-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 96**) ilə 2.1-ci bənddə "**və 85-ci maddəsinin** " sözləri "**, 85-ci maddəsinin adında, birinci hissəsində və**" sözləri ilə əvəz edilmişdir.

19 iyul 2019-cu il tarixli **781** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 21 iyul 2019-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1228**) ilə 2.1-ci bəndə "**8-ci bəndində,**" sözlərindən sonra "**12-ci maddəsinin 2-ci hissəsinin birinci cümləsində,**" sözləri əlavə edilmişdir.

28 avqust 2019-cu il tarixli **824** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 sentyabr 2019-cu il, 191, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1406**) ilə 2.1-ci bənddə "**9-cu maddəsinin 4-cü hissəsində** " sözləri "**9-cu maddəsinin 4-cü və 9-cu (hər iki halda) hissələrində**" sözləri ilə əvəz edilmişdir.

28 avqust 2019-cu il tarixli **820** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1402**) ilə 2.1-ci bəndə "(**hər üç halda**) " sözlərindən sonra "**, ikinci cümləsində** " sözləri əlavə edilmişdir.

12 aprel 2021-ci il tarixli **1311** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 aprel 2021-ci il, 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 316**) ilə 2.1-ci bəndə **"Qeyd" hissəsinin birinci cümləsində** " sözlərindən

sonra “**, həmin Qanuna 1 saylı Əlavə – “Nəqliyyat vasitələrinin nasazlıqlarının siyahısı”nın VII hissəsinin 3-cü bəndində** ” sözləri əlavə edilmişdir.

-

[3]
1 may 2017-ci il tarixli **1354** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 758**) ilə 2-ci hissəsinə yeni məzmunda üçüncü - beşinci abzaslar əlavə edilmişdir və üçüncü - otuzuncu abzaslar müvafiq olaraq altıncı - otuz üçüncü abzaslar hesab edilmişdir.

6 iyul 2018-ci il tarixli **180** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 12 iyul 2018-ci il, 152 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1466**) ilə 2.2-ci bənddə “**əməkdaşlarına**” sözlərindən sonra “**, habelə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin və Bakı Nəqliyyat Agentliyinin işçilərinə**” sözləri əlavə edilmişdir.

28 avqust 2019-cu il tarixli **820** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1402**) ilə 2.2-ci bənddə “**nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini** ” sözləri “**orqan (qurum)” dedikdə**” sözləri ilə, “**həyata keçirirlər**” sözləri “**nəzərdə tutulur**” sözləri ilə əvəz edilmişdir və həmin bəndə “**dövlət qulluqçularına**” sözlərindən sonra “**habelə Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətinin işçilərinə** ” sözləri əlavə edilmişdir.

22 may 2020-ci il tarixli **1036** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 1 iyun 2020-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 561** ) ilə 2.2-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*2.2. həmin Qanunun 23-cü maddəsinin 2-ci hissəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə vəsaitlərin orqanlar arasında bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitlərdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına habelə Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətinin işçilərinə münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin yol patrul xidmətini həyata keçirən və yol hərəkətinin tənzimlənməsinə cəlb olunan əməkdaşlarına, habelə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin və Bakı Nəqliyyat Agentliyinin işçilərinə münasibətdə) nəzərdə tutulur;*~~

-

[4]
